AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Parlamentdə sayı azalan kitabxanaların 'inkişafı'ndan danışıblar

1 saat öncə




Mehriban Əliyevanın vaxtilə deputat olduğu rayonda kitabxana təmirlidir, bəs digər rayonlarda? (ARXIV. 2022)

**"Sovetlərdən qalma kitabxana sistemində həm infrastruktur, həm də məzmun baxımından bir çox problemlər var".** AZƏRTAC-ın xəbərinə görə, bunu mədəniyyət naziri **Adil Kərimli** iyunun 10-da Milli Məclisdə "Kitabxana sisteminin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda keçirilən ictimai müzakirədə bildirib.

Nazir qeyd edib ki, kitabxana sisteminin təkmilləşdirilməsi və optimallaşdırılmasının ilk hüquqi əsası prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı fərmanla qoyulub: "Həmin sənəddə kitabxana sisteminin təkmilləşdirilməsi, optimallaşdırılması və yeni yanaşmalar əsasında yenidən qurulması ilə bağlı həm Mədəniyyət Nazirliyinə, həm də hökumətə konkret tapşırıqlar verilib. Bu, ilkin hüquqi baza kimi çıxış edir. Eyni

zamanda, bir daha qeyd etmək istəyirəm ki, “Azərbaycan Mədəniyyəti – 2040” Mədəniyyət Konsepsiyasında da bu istiqamətdə xüsusi tapşırıqlar müəyyən olunub. Ümumilikdə, yeni mədəniyyət modelinin yaradılmasının əsas prinsiplərindən biri əlçatanlığın təmin edilməsidir".

## Xatırlatma

Son iki onillikdə Azərbaycanda kitabxanaların sayında kəskin azalma qeydə alınıb. Dövlət Statistika Komitəsinin (DSK) hesabatına görə, 2005-ci ildə ölkədə 4004 kitabxana fəaliyyət göstərdiyi halda, 2015-ci ildə bu rəqəm 3242-yə, 2024-cü ildə isə 2914-ə düşüb.

2025-ci ilin göstəriciləri isə hələlik açıqlanmayıb. Hazırda elə kəndlər var ki, orada kitabxanalar tamamilə fəaliyyətini dayandırıb. Ekspertlər bu tendensiyanın əhalinin mədəni səviyyəsinə mənfi təsir göstərəcəyindən narahatdırlar.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur